# Azərbaycan erməni saxtakarlıqlarını və yalanlarını iflasa uğradır

Ermənilərin Cəbrayılda "kilsə"lərinin dağıdılması barədə dünya ictimaiyyəti qarşısında qaldırdıqları yalançı hay-küy onların növbəti həyasızlıqlarının inikasıdır. Utanmadan bu qondarma vay-şüvəni salanlar 30 illik işğal dövründə Azərbaycan torpaqlarındakı yer adlarını, toponimləri dəyişdirib, uydurma adlar qoyub, tariximizə iddia edə bilmədikləri məqamlarda isə barbarlığa əl ataraq maddi-mədəni, dini abidələrimizi vəhşicəsinə dağıdanlardır. Onlar xalqımızın tarixi yaddaşını yox etmək, milli mədəniyyətimizin izlərini silmək üçün hər cür namərdliyə əl ataraq çirkin əməllərini illərboyu həyata keçiriblər, 30 ildə Qarabağda dünyada misli görünməmiş talançılıqla məşğul olub, bütün tarixi, dini abidələrimizi məhv ediblər.

## Bir erməninin belə yaşamadığı Cəbrayılda erməni "kilsə"si?

Hiyləgərlikləri, namərdlikləri ilə bütün dünyada məşhur olan erməni şovinistləri eyni zamanda haqqın nahaqqa qalib gələcəyi, bir gün zorla qəsb etdikləri torpaqların əsl sahiblərinə qayıdacağı günü də hesaba alaraq, həmin zamanlar üçün də məkrli niyyətlər düşünüb, qara planlar qurublar. Bu insanlıqdan uzaq əməllərinə isə hər zaman olduğu kimi dini don geyindirməyə, xristian dünyasının diqqətini Qarabağa çəkməyə, Azərbaycana qarşı qarayaxma kampaniyasında onların dəstəyini qazanmağa çalışıblar.

Sonradan köçdükləri ərazilərin tarixini saxtalaşdırmaq, dini və digər abidələri məhv etmək, orada kilsə tikərək bir müddətdən sonra həmin yerin onlara məxsus olduğunu bar-bar bağırmaq ermənilərin köhnə şakəridir. Azərbaycan torpaqlarında tarixboyu məqsədyönlü şəkildə həyata keçirdikləri bu məkrli siyasət onların bu bölgədə lap "qədim"dən var olmaları ilə bağlı uydurmalarına don geyindirmək niyyətini güdür.

Elə 2012-2017-ci illər ərzində Cəbrayılda "kilsə" tikmələrinin də əsas məqsədi bu olub. O da faktdır ki, Cəbrayıl tarixi Azərbaycan torpağıdır və işğala qədərki dövrə qədər heç zaman burada bir nəfər də olsun erməni yaşamayıb. Rəsmi məlumatlara əsasən, işğala qədər bu rayonda 5 tarixi məscid olub. Məscidlər Daşkəsən, Süleymanlı, Məzrə, Çələbilər və Papı kəndlərində yerləşib. Lakin həmin məscidlərin hamısı erməni vandalları tərəfindən yerləyeksan olunub.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən təsbit olunmuş siyahıya, əsasən, işğal altındakı torpaqlarımızda təqribən 403 tarixi - dini abidə daxildir. Onlardan 67-si məscid, 144-ü məbəd, 192-si ziyarətgahdır. İşğal dövrü ərzində ermənilər tərəfindən ən çox dağıntılara və təlefata məruz qalan abidələr də əsasən İslam dini abidələri, yəni məscidlər, türbələr və digər inanc yerləri olmuşdur. Belə ki, Dağlıq Qarabağ və ətraf rayonların ərazilərində rəsmi fəaliyyət göstərmiş 67 məscidin (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınmışdır.

Mütəxəssislər işğal olunmuş ərazilərdə qalan və İslam dövrünə aid olan tarixi abidələrin ermənilər tərəfindən xüsusi amansızlıqla dağıdılmasının əsas səbəbini onların üzərində müsəlman epiqrafiyası ilə yazıların olmasında görürlər. Bildirirlər ki, bu abidələri erməniləşdirmək və qeyri-Azərbaycan abidələri kimi təqdim etmək mümkün olmadığı üçün onlar bu cür vəhşiliyə əl atıblar.

Ermənilərin həyata keçirmək istədikləri əsas məkrli niyyətlərindən biri də Azərbaycan ərazilərindəki Qafqaz alban irsinə yiyələnmək olub. Buna görə də Qarabağda olan alban məbədlərində özününküləşdirmə, tarixi faktların saxtalaşdırılması ilə məşğul olublar. Onlar bu əməlləri ilə həmin ərazilərə olan iddialarını gücləndirməyə, saxta faktlar təqdim edərək dünyanı bu yalanlarına inandırmağa çalışıblar.

Göründüyü kimi, işğal ərəfəsində qanunsuz olaraq Cəbrayil rayonunda "kilsə" tikərək sonradan onun ətrafında şou yaratmaq da yuxarıda sadalanan uydurma erməni planlarının mühüm tərkib hissəsidir.

Kilsə sözünü isə hər dəfə ona görə dırnaqda yazırıq ki, xristian dininə heç bir aidiyyəti olmayan bu tikili dini ayinlər yox, hərbçilər tərəfindən tikilərək cəbbəxana kimi istifadə üçün nəzərdə tutulmuşdur.

Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistanın Azərbaycanın işğaldan azad edilmiş ərazilərində "mədəniyyət cinayətləri" törətmək barədə əsassız iddialarını qətiyyətlə rədd edib. Qurumdan bildirilib ki, 2017-ci ildə Azərbaycanın Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına (ATƏT) müraciətindən sonra ATƏT-in Minsk qrupunun həmsədrləri Cəbrayıldakı ibadətgahı ziyarət etməyi qərara alıblar: "Azərbaycan Respublikası erməni qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərinin demoqrafik, mədəni və fiziki xüsusiyyətlərini dəyişdirməsindən ciddi narahatlığını bildirdi. ATƏT-in Minsk qrupu həmsədrləri bu səfərdən sonra ibadətgahın Cəbrayıldakı hərbi birləşmənin bir hissəsi olaraq erməni əsgərləri tərəfindən istifadə edilməsi üçün inşa edildiyi qənaətinə gəldilər".

Göründüyü kimi, ermənilərin Cəbrayılda tikdikləri qanunsuz tikili ilə bağlı Azərbaycanı ittiham etməyə nə haqqı var, nə də hüquqi əsası.

Ermənistan işğalçı qüvvələrinə xidmət etmək məqsədi daşıyan bu uydurma tikili nə Cəbrayılın, nə də ümumilikdə Azərbaycanın mədəniyyət tarixinin bir hissəsi hesab edilə bilməz.

## Ermənistan heç zaman azərbaycanlı əsirlərə qarşı humanist olmayıb

Son vaxtlar Azərbaycana qarşı daha bir əsassız və qərəzli iddia isə "Human Rights Watch" təşkilatı tərəfindən qaldırılıb. Təşkilatın məruzəsində erməni əsirlərə qarşı pis rəftar olunduğu iddia olunub. Amma elə ilk baxışdan bu məruzənin obyektivlikdən çox uzaq və birtərəfli olduğu görünür. Çünki Azərbaycanda saxlanılan bütün erməni hərbi əsirlər və mülki şəxslərlə 1949-cu il Cenevrə Konvensiyalarının tələblərinə uyğun olaraq rəftar edilib. Onlar işgəncə, alçaldıcı və pis rəftara məruz qalmayıblar, onlara lazımi tibbi yardım göstərilib və hər biri saxlanıldıqları müddətdə tibbi müayinədən keçirilib. Müayinə zamanı xəsarət izləri aşkar olunmayıb (döyüş əməliyyatlarında alınan zədələr istisna olmaqla).

Ötən ilin oktyabr ayından etibarən erməni hərbi əsir və mülki şəxslərə Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndələri tərəfindən müntəzəm baş çəkilib və ailə üzvləri ilə telefon və video danışıqlarına icazə verilib. Azərbaycan Respublikası Ombudsman Aparatının nümayəndələri hərbi əsirlərin və mülki şəxslərin saxlandıqları yerləri ziyarət edərək onların şəraiti ilə tanış olublar.

Amma Ermənistan nə Birinci, nə də İkinci Qarabağ müharibəsi dövründə azərbaycanlı əsirlərə qarşı bu cur humanist münasibətdə olmayıb.

Təkcə Xocalıda əsir götürdükləri minlərlə azərbaycanlının başına gətirdikləri tükürpədici işgəncələri xatırlamaq onların əsirlərlə insanlıqdan uzaq rəftarını göz önünə gətirməyə yetir. Və heç də uzaq tarixdə baş verməyən bu vandallıqlarla bağlı saysız faktlar, elə erməni vəhşiliklərinə məruz qalan minlərlə canlı şahid var.

Rəsmi məlumata əsasən, Birinci Qarabağ müharibəsi nəticəsində 3890 azərbaycanlı itkin düşüb və onların taleyi hələ də məlum deyil. İtkin düşənlərin 3171-i hərbçi, 719-u mülki şəxsdir (o cümlədən 71 uşaq, 267 qadın, 326 yaşlı). 1480 keçmiş azərbaycanlı əsirin şahid ifadələrinə görə, onlar işgəncəyə məruz qalıb və alçaldıcı şəraitdə saxlanılıblar. Bununla da 1949-cu il Cenevrə Konvensiyalarının da daxil olmaqla beynəlxalq humanitar hüquq kobud şəkildə pozulub.

İşğal altındakı dədə-baba yurdlarında, Kəlbəcərdə doğmalarının məzarlarını ziyarətə gedən Şahbaz Quliyev və Dilqəm Əsgərovu da girov götürərək illərlə qanunsuz həbsdə saxlamaları, onlara olmazın işgəncələr verməleri ermənilərin qeyri-insani davranışlarını göstərən faktlardan sadəcə biridir.

Son hərbi əməliyyatlar zamanı da Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan əsirlərinə qarşı pis rəftarla bağlı çoxsaylı faktlar mövcuddur. Əvvəllər Ermənistanda saxlanılan və daha sonra Azərbaycana qaytarılan bütün əsir və mülki şəxslərin məhkəmə tibbi ekspertizasının nəticələri, onların saxlanma şəraitləri barədə aparılan sorğular, mütəxəssis rəyləri, şəxsi ifadələr və digər materiallar məhbusların böyük əksəriyyətinin fiziki işgəncə və qeyri-insani rəftara məruz qaldıqlarını təsdiqləyib.

Amma nə yazıq ki, dünya hələ də erməni cinayətlərinə lazımi qiymət verməyib, susmağı üstün tutub. Azərbaycanı erməni əsirlərə qarşı pis rəftarda günahlandıran "Human Rights Watch" təşkilatı və Ermənistanın havadarı olan bəzi ölkələr təəssüf ki, bu qanunsuzluqlara diqqət ayırmağa lüzum görməyiblər.

## "Onlar terrorçudur, diversantdılar"

10 noyabr 2020-ci il üçtərəfli Bəyanatı ilə razılaşdırılımaya əsasən, Azərbaycan bütün hərbi əsirləri Ermənistana qaytarıb. "Human Rights Watch" isə ölkəmizdə erməni hərbi əsirlərin olması ilə bağlı da əsassız iddia səsləndirib. Amma bilərəkdən, ya da bilməyərəkdən gözardı edib ki, qarşıdurmanın bitməsini ehtiva edən üçtərəfli bəyanatın imzalanmasından sonra Azərbaycanda saxlanılan şəxslər hərbi əsir hesab edilmirlər. Həmin dövrdən sonra Ermənistan tərəfindən təxribat və terror fəaliyyəti ilə məşğul olmaq məqsədi ilə Azərbaycan ərazisinə göndərilənlər beynəlxalq humanitar hüquqa uyğun olaraq hərbi əsir deyillər və hesab edilə də bilməzlər.

Ölkəmizin ərazisində diversiya ilə məşğul olan həmin əsirlər barədə Prezident İlham Əliyev yanvarın 6-da 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda keçirilən müşavirədə çıxışı zamanı söylədi ki, ölkəmiz onlara qarşı da humanizm nümayiş etdirib: "...Onlar mülki əhaliyə qarşı soyqırımı törətmişlər, Xocalı soyqırımı, digər hərbi cinayətlər. Biz isə bizim azad edilmiş ərazilərdə diversiya ilə məşğul olanları əsir götürdük. Məhv etmədik. Dedim ki, əsir götürün, daha müharibə başa çatıb, daha qan tökmək lazım deyil. Bu, yenə də bizim humanist mahiyyətimizi göstərir. Bu, bizim ərazimizdə yerləşib və oradan çıxmaq istəməyən bir qüvvədir və bizə qarşı təxribatlar törədib, hərbi təxribatlar. Bunun nəticəsində hərbçilərimiz həlak olub. Biz isə yenə humanistlik göstərmişik. Onları əsir götürmüşük".

İlham Əliyev həmin cinayətkarların əsl adını da söyləyərək vurğulayıb ki, amma onlar hərbi əsir sayıla bilməz, çünki müharibə qurtarıb. Onlar terrorçudur, diversantdır: "Onlar Xocavənd rayonuna Ermənistandan, Ermənistanın Şirak vilayətindən noyabrın 26-dan sonra gəlmişlər. Bunu hər kəs bilsin. Nə üçün gəlmişlər? Kim onları göndərib? Müharibə ayın 10-da qurtarıb, bəyanat imzalanıb. Kim göndərir onları oraya? Əgər Ermənistan rəhbərliyi bu qanunsuz silahlı birləşmələrə nəzarət edə bilmirsə, bu, onların problemidir. Ona görə burada heç kim bizi ittiham edə bilməz".

Bəli, nə erməni havasına oynayan qərəzli təşkilatlar, nə də erməni yalanlarına, saxtakarlıqlarına göz yuman, onlara havadarlıq etməyə çalışan bəzi ölkələr Azərbaycanın haqq və ədalətin tərəfində olduğunu dana bilməzlər. Və dünyadakı heç bir məkrin, qərəzin, riyanın, saxtakarlığın "Qarabağ Azərbaycandır!" həqiqətini dəyişdirməyə gücü yetməz.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*